# DÖVLƏT İMTAHAN MƏRKƏZİ 2026/2027-ci TƏDRİS İLİ ÜÇÜN AZƏRBAYCAN RESPUBLİKASININ ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNƏ ÜMUMİ ORTA TƏHSİL BAZASINDA TƏLƏBƏ QƏBULU MÜSABİQƏSİNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN

# İXTİSAS SEÇİMİ ELAN EDİR

**1.** Azərbaycan Respublikasının ümumi orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu müsabiqəsində iştirak etmək üçün **ixtisas seçiminə qəbul imtahanında topladıqları ümumi balı 50-dən, tədris dili (Azərbaycan dili və ya rus dili) fənni üzrə balı 20-dən və riyaziyyat fənni üzrə balı 10-dan az olmayan** abituriyentlər buraxılırlar.

**Xüsusi qabiliyyət tələb edən** ixtisasların müsabiqəsinə **ümumi balı 50-dən az olmayan** (fənlər üzrə bal məhdudiyyəti qoyulmur) və müvafiq komissiya tərəfindən keçirilən qabiliyyət imtahanlarından "məqbul" alan abituriyentlər buraxılırlar.

Ümumi orta (9 illik) təhsil səviyyəsini Azərbaycan Respublikasının ümumi təhsil müəssisələrində **cari ildə bitirən abituriyentlər** müsabiqədə tədris dili *(Azərbaycan dili və ya rus dili)*, riyaziyyat və xarici dil fənlərindən **buraxılış imtahanında** ***(9-cu siniflər üzrə)*** əldə etdikləri nəticələr əsasında iştirak edirlər.

**2025-ci ildə qəbul (buraxılış) imtahanında iştirak edən** və imtahanda topladığı balı builki müsabiqə şərtlərini ödəyən abituriyent həmin nəticəsi ilə cari ildə keçirilən müsabiqədə iştirak edə bilər. Bunun üçün həmin abituriyent 2026-cı il fevralın 18-dən martın 5-dək olan müddətdə "Abituriyentin elektron ərizəsi" formasını dolduraraq təsdiq etməli (etdirməli) idi. Bu kateqoriyadan olan abituriyentlər cari ildə keçirilən qəbul imtahanında iştirak etdikləri halda müsabiqəyə hansı imtahanın nəticəsi ilə qatılacaqlarını ixtisas seçimi zamanı özləri müəyyən edirlər.

**2. İxtisas seçimi 2026-cı il avqustun 3-dən 9-dək internet vasitəsilə aparılır.** İxtisas seçimi mərhələsində abituriyentlər qəbul olmaq istədikləri ixtisasları seçib onların kodlarını **eservices.dim.gov.az/erizetex/ixtisas1** internet ünvanında yerləşən "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"nə daxil edərək təsdiq etməlidirlər (bax: səh. 3, "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"nin doldurulması və təsdiqi üçün təlimat).

**3. İxtisas seçmək hüququ olan abituriyent** orta ixtisas təhsili müəssisələrinin təhsili dövlət büdcəsinin vəsaiti hesabına və ödənişli əsaslarla olan **12-dək** ixtisas kodunu qeyd edə bilər. İxtisas kodlarının ardıcıllığını abituriyent özü müəyyənləşdirir. Müsabiqə zamanı abituriyentin yerləşdirilməsi onun seçdiyi ixtisasların ardıcıllığı nəzərə alınmaqla qəbul planı çərçivəsində həyata keçirilir və abituriyent müsabiqədən keçdiyi ixtisasların birincisinə yerləşdirilir.

**4.** İxtisaslar siyahısında xüsusi qabiliyyət tələb edən ixtisaslar ulduz "*" işarəsi ilə qeyd olunmuşdur. Bu ixtisasları yalnız müvafiq komissiya tərəfindən keçirilən qabiliyyət imtahanlarından "məqbul" alan abituriyentlər seçə bilərlər. Xüsusi qabiliyyət tələb edən ixtisaslar barədə ətraflı məlumat "Abituriyent" jurnalının qabiliyyət imtahanları üzrə xüsusi buraxılışlarında təqdim olunmuşdur.

Abituriyentlər xüsusi qabiliyyət tələb edən ixtisaslarla yanaşı, digər ixtisasları da seçə bilərlər.

**5.** Bakı İlahiyyat Kollecinin **"Dini-mənəvi xidmət"** ixtisasını yalnız həmin kollecdə təşkil olunan Dini-Psixoloji Komissiyada müsahibədən (qabiliyyət imtahanından) "məqbul" alan abituriyentlər seçə bilərlər.

**6.** Bakı Xoreoqrafiya Akademiyasının **"Xoreoqrafiya sənəti (klassik, xalq)"** ixtisasının müsabiqəsində yalnız Bakı Xoreoqrafiya Akademiyasının ümumi orta təhsil pilləsini bitirən şagirdlər iştirak edə bilərlər.

**7.** Bakı Xoreoqrafiya Akademiyasının **"Rəqs müəllimliyi"** ixtisasının müsabiqəsində yalnız incəsənət məktəblərini bitirən şagirdlər iştirak edə bilərlər.

**8.** Müsabiqə abituriyentin qəbul imtahanında topladığı ümumi bal əsasında aparılır.

Müsabiqə zamanı ümumi balı eyni olan iki və daha çox abituriyenti bir-birindən fərqləndirmək məqsədilə aşağıda qeyd edilən ardıcıllıqda əlavə göstəricilərdən istifadə edilir:

- təhsil haqqında sənədə (attestata) tədris dili (Azərbaycan dili və ya rus dili), ədəbiyyat, xarici dil, riyaziyyat, Azərbaycan tarixi, ümumi tarix, fizika, kimya, biologiya, coğrafiya fənləri üzrə yazılmış yekun qiymətlərin ədədi ortası;
- tədris dili (Azərbaycan dili və ya rus dili) fənni üzrə imtahan balı;
- riyaziyyat fənni üzrə imtahan balı.

Ümumi balı eyni olan iki və daha çox abituriyenti bir-birindən fərqləndirmək mümkün olmadıqda, onların hamısı müvafiq ixtisasa yerləşdirilir.

**9.** Təhsilalma formasından asılı olmayaraq, hər hansı bir ixtisasa yerləşdirilmiş abituriyent müəyyən edilən **10 (on) iş günü müddətində** qəbul olunduğu təhsil müəssisəsi üzrə elektron qaydada qeydiyyatdan keçməlidir. Bunun üçün abituriyent **https://portal.edu.az/** platformasında qeydiyyatdan keçməli və yaradılmış kabinetə daxil olduqdan sonra təqdim edilən xidmətlər sırasında "Ali və orta ixtisas təhsil müəssisələrinə təhsilalan qeydiyyatı" xidmətini seçməlidir. Abituriyentin bu müddətdə qeydiyyatdan keçməməsi onun yerləşdirildiyi ixtisas üzrə təhsil almaqdan imtina etməsi kimi qiymətləndirilir. Bu abituriyentlər boş qalan yerlər üzrə keçirilən müsabiqəyə buraxılmırlar.

# "ABİTURİYENTİN ELEKTRON İXTİSAS SEÇİMİ ƏRİZƏSİ"NİN DOLDURULMASI VƏ TƏSDİQİ ÜÇÜN TƏLİMAT (ÜMUMİ ORTA TƏHSİL BAZASI)

**Abituriyent:**

- ✓ ilk növbədə imtahan verdiyi bölməyə uyğun ixtisaslardan qəbul olunmaq istədiklərini müəyyənləşdirir (bax: səh. 5-16);
- ✓ **eservices.dim.gov.az/erizetex/ixtisas1** internet səhifəsinə daxil olur, şəxsi kabinetinin istifadəçi adı və parolunu müvafiq sahələrə daxil edib **"Daxil ol"** düyməsini basır;
- ✓ "Abituriyent üçün məlumat"ı oxuyur;
- ✓ seçdiyi ixtisasların kodlarını ərizəsində müvafiq sahələrə daxil edir. Abituriyent orta ixtisas təhsili müəssisələrinin imtahan verdiyi bölməyə aid olan 12-yə qədər ixtisas kodunu qeyd edə bilər. Seçilmiş ixtisas kodlarının ərizə formasında göstərilən ardıcıllığı müsabiqə zamanı hüquqi əsas kimi qəbul olunur və abituriyent müsabiqədən keçdiyi ixtisasların birincisinə yerləşdirilir. Seçilmiş ixtisaslar aşağıdakı tələbləri ödəməlidir:

  – ixtisas kodları elan olunmuş ixtisaslar siyahısından seçilməlidir (bax: səh. 5-16);

  – Azərbaycan bölməsinin abituriyentləri Azərbaycan, rus bölməsinin abituriyentləri isə rus bölməsinə aid olan ixtisasları seçməlidirlər. Müsabiqəsi birgə aparılan ixtisasları hər iki bölmənin abituriyentləri seçə bilərlər.

  **Bu tələbləri ödəməyən ixtisas kodları nəzərə alınmır.**

- ✓ ərizəni doldurduqdan sonra daxil edilmiş məlumatların düzgünlüyünü və tam olmasını yoxlayır və "Bəyannamə"ni oxuyur;
- ✓ **"Ərizəni yadda saxla"** düyməsini basır;
- ✓ proqram yoxlamalar nəticəsində səhvlər barəsində məlumat verərsə, müvafiq düzəlişlər aparır və yenidən **"Ərizəni yadda saxla"** düyməsini basır;
- ✓ proqram yoxlamalar nəticəsində heç bir səhv aşkar etmədikdə, ekranda **"Ərizəni təsdiq et"** düyməsi aktivləşir;
- ✓ abituriyent **"Ərizəni təsdiq et"** düyməsini basaraq ixtisas seçimini təsdiq edir.

Ərizə təsdiq edildikdən sonra ekrana ərizənin təsdiq edilməsi haqqında məlumat çıxır.

**Diqqət!**
Müsabiqəyə yalnız "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"ni doldurub təsdiq etmiş abituriyentlər buraxılacaqlar. Ərizə təsdiq edildikdən sonra onda heç bir dəyişiklik etmək mümkün olmayacaq.

# "ABİTURİYENTİN ELEKTRON İXTİSAS SEÇİMİ ƏRİZƏSİ"NİN FORMASI (ÜMUMİ ORTA TƏHSİL BAZASI)

Ərizədə ixtisas seçimi təsdiq edilməyib. Ərizədə tələb olunan sahələri doldurub ərizəni **'Ərizəni təsdiq et'** düyməsini basmaqla ixtisas seçimini təsdiq edin.

DÖVLƏT İMTAHAN MƏRKƏZİ

**DÖVLƏT İMTAHAN MƏRKƏZİ**

**2026/2027-ci TƏDRİS İLİ ÜÇÜN AZƏRBAYCAN RESPUBLİKASININ ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNƏ TƏLƏBƏ QƏBULU**

**"ABİTURİYENTİN ELEKTRON İXTİSAS SEÇİMİ ƏRİZƏSİ"NİN FORMASI (ÜMUMİ ORTA TƏHSİL BAZASI)**

**ŞƏXSİ MƏLUMATLAR**



| | | |
|---|---|---|
| İş nömrəsi: | **999999** | |
| Soyadı: | Adı: | Atasının adı: |
| **MƏMMƏDOV** | **AKİF** | **SƏLİM** |
| Doğulduğu tarix (gün.ay.il): | Topladığı ümumi bal: | |
| **20.01.2001** | **72 (Ana dili:32 Riyaziyyat:30 Xarici dil:10)** | |

**İXTİSASLAR HAQQINDA MƏLUMATLAR**

Test imtahanı verdiyi dil (bölmə):

**Azərbaycan**

Seçdiyi ixtisaslar: - Təhsil müəssisələrinə görə ixtisasların siyahısı

1. **589557** ... Ağcabədi Pedaqoji Kolleci. Texnologiya müəllimliyi, əyani, Azərbaycan bölməsi
2. **576815** ... Bakı Qida Sənayesi Kolleci. Peşə təlimi, əyani, Azərbaycan bölməsi
3. **589216** ... Ağdam Dövlət Sosial-İqtisadi Kolleci. Peşə təlimi, əyani, Azərbaycan bölməsi
4. **589265** ... Ağdam Dövlət Sosial-İqtisadi Kolleci. Ailə və ev təhsili, əyani, Azərbaycan bölməsi, ödənişli
5. **589257** ... Ağdam Dövlət Sosial-İqtisadi Kolleci. Peşə təlimi, əyani, Azərbaycan bölməsi, ödənişli
6. **579918** ... Bakı Humanitar Kolleci. Kitabxana-informasiya təminatı, əyani, Azərbaycan bölməsi
7. **578646** ... Azərbaycan Dəniz Balıq Sənayesi Kolleci. Gəmilərin təmiri, əyani, Azərbaycan bölməsi
8. **578695** ... Azərbaycan Dəniz Balıq Sənayesi Kolleci. Gəmi sürücülüyü, əyani, Azərbaycan bölməsi, ödənişli
9. **592667** ... Astara Pedaqoji Kolleci. Peşə təlimi, əyani, Azərbaycan bölməsi
10. **589232** ... Ağdam Dövlət Sosial-İqtisadi Kolleci. Maliyyə işi, əyani, Azərbaycan bölməsi
11. **589273** ... Ağdam Dövlət Sosial-İqtisadi Kolleci. Maliyyə işi, əyani, Azərbaycan bölməsi, ödənişli
12. **577528** ... Bakı İdarəetmə və Texnologiya Kolleci. Mühasibat uçotu, əyani, Azərbaycan bölməsi

**BƏYANNAMƏ! Qəbul qaydaları ilə tanış olmuşam, ərizəni şəxsən doldurmuşam və ərizədəki məlumatlar səhv olduğu halda məsuliyyəti öz üzərimə götürürəm.**

Ərizəni yadda saxla | Əvvəlki səhifəyə qayıt | Ərizəni çap et | **Ərizəni təsdiq et**

DİM-2026